

EaPGREEN
Partnership for Environment and Growth

This project is funded by the EU

# AZƏRBAYCANDA YAŞIL İNVESTİSİYALARIN VƏ MALİYYƏLƏŞMƏNİN ARTIRILMASI

OECD BETTER POLICIES FOR BETTER LIVES
UNECE
UN environment
UNIDO

This project is funded by the EU

# AZƏRBAYCANDA YAŞIL İNVESTİSİYALARIN VƏ MALİYYƏLƏŞMƏNİN ARTIRILMASI

**Özəl investorlar tərəfindən Azərbaycanda yaşıl, aşağı-karbon və enerji effektivli inkişafın maliyyələşməsi**

## AZƏRBAYCANDA YAŞIL MALİYYƏLƏŞDİRİLMƏYƏ BAXIŞ

## Məlumat kitabçası

## Mündəricat

**Son iqtisadi vəziyyət** ........ 4
**Maliyyə bazarlarına ümumi baxış** ........ 5
**Yaşıl investisiya siyasəti** ........ 7
**Maliyyə mənbələri** ........ 8
**Müzakirə üçün əsas suallar** ........ 11
**Mənbələr** ........ 11

# Abreviaturalar

| | |
|---|---|
| CBA | Azərbaycan Mərkəzi Bankı |
| CEEP | AYİB Qafqaz Enerji Səmərəliliyi Proqramı |
| DAC | OECD İnkişaf üzrə Yardım Komitəsi |
| EaP | Şərq Tərəfdaşlığı |
| EBRD | Avropa Yenidənqurma və İnkişaf Bankı |
| EU | Avropa İttifaqı |
| FMSA | Maliyyə bazarına Nəzarət Agentliyi |
| GDP | Ümumi Daxili Məhsul |
| GGF | Yaşıl Artım Fondu |
| IBA | Azərbaycan Beynəlxalq Bankı |
| IFC | Beynəlxalq Maliyyə Korporasiyası |
| IFI | Beynəlxalq Maliyyə İnstitutu |
| INDC | Nəzərdə tutulmuş milli səviyyədə müəyyənləşdirilən töhfələr |
| MRV | Ölçmə, hesabat və yoxlama |
| MSME | Mikro, kiçik və orta müəssisələr |
| NAMA | Milli Müvafiq YumşaldılmaTədbirləri |
| NAP | Milli Uyğunlaşma Planı |
| NPL | Non-performing loan |
| OECD | İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| PPA | Enerji Alışı Müqaviləsi |
| SAARES | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi |
| SME | Kiçik və orta müəssisələr |
| TANAP | Trans-Anadolu qaz boru kəməri |
| TAP | Trans-Adriatik Boru Kəməri |
| USD | ABŞ dolları |

**Ölçü vahidləri**

| | |
|---|---|
| $CO_2$ | Karbon Dioksid |
| QVt | Qiqavatt |
| MVt | Meqavatt |

# Azərbaycanda yaşıl maliyyəyə baxış

Bu hesabat, Azərbaycanda ətraf mühitin maliyyələşdirilməsi üçün bazarın inkişafını nəzərdən keçirir. Son dövr üzrə makroiqtisadi göstəricilərə əsasən, Azərbaycanın bank və maliyyə bazarlarında inkişaf etməkdə olan vəziyyəti müəyyənləşdirir. Hesabatda ətraf mühitin maliyyələşdirilməsi və əlaqədar layihələrin nümunələrini ətraflı təsvir etməzdən əvvəl ətraf mühitin mühafizəsini dəstəkləyən siyasət və hədəflər haqqında ümumi məlumat verilmişdir. Bu, ölkənin ətraf mühitin maliyyələşdirilməsinin genişləndirilməsi ilə bağlı müzakirə aparmağa kömək edən bir sıra sualları özündə cəmləşdirir.

Bu hesabat, İƏİT tərəfindən 4 aprel 2018-ci il tarixində Bakida keçiriləcək Azərbaycanda yaşıl maliyyə seminarında müzakirələrin aparılması üçün dəstəkləyici məlumatlarla təmin edilməsi məqsədilə hazırlanmışdır.

Seminar Avropa İttifaqının (Aİ) "Şərq Tərəfdaşlığı Ölkələrində İqtisadiyyatın Yaşıllaşdırılması" layihəsi (Yaşıl İqtisadiyyat) tərəfindən maliyyələşdirilir, İƏİT tərəfdaşları ilə birlikdə Birləşmiş Millətlər Təşkilatının İqtisadi Komissiyası (UNECE), Ətraf mühit (UN Environment) və Sənayenin İnkişafı Təşkilatı (UNIDO) tərəfindən həyata keçirilir.

## Son iqtisadi vəziyyət

Neftin gəlirləri və dəstəklənən inkişaf illərindən sonra, 2015-ci ildə neftin qiymətinin aşağı düşməsi Azərbaycan iqtisadiyyatına təsir göstərərək, yüksək inflyasiya və maliyyə sektorunda gərginlik ilə nəticələnib. 2015-ci ilin fevral və dekabr aylarında Azərbaycanda manatın dəyərinin dollara qarşı devalvasiyası, müvafiq olaraq 35 % və 50 % elan edilmişdir. Siyasətçilər, idarə olunan üzən məzənnəyə keçməzdən əvvəl, manata dəstək vermək məqsədi ilə 2015-ci ildə xarici valyuta ehtiyatlarının üçdə iki hissəsindən çoxunu istifadə etdiyini bildirmişlər. Valyutanı dəstəkləmək üçün faiz dərəcələri 15 faizədək artırıldı.

Devalvasiyanın məqsədi Azərbaycanın qonşuları və əsas qeyri-enerji ticarət tərəfdaşları ilə valyutaların son zamanlar devalvasiya və ya dəyərsizləşmələrdən sonra Azərbaycanın ticarət rəqabətqabiliyyətliliyini bərpa etmək idi. Həmçinin, Azərbaycanın bir çox regional rəqibləri də devalvasiyalardan keçiblər.

*Şəkil 1: Azərbaycanın ÜDM artımı 2012-18 (proqnozlaşdırılır)*




Mənbə: Dünya Bankı, Dünya inkişaf indirkatorları üzrə məlumat bazası.

Sənaye, neft hasilatı və tikinti sektorundan əhəmiyyətli dərəcədə iqtisadi gəlirlərin azalması 2016-cı ildə iqtisadiyyatın 3.8 %, 2017-ci ildə isə 1.3% azalması ilə nəticələnib. Lakin, xidmətlər genişlənməyə davam edir. Dünya Bankı 2018-ci ildə 1 % mülayim artıma qayıdışı proqnozlaşdırır.

Mövcud iqtisadi tənəzzülə rəğmən iqtisadiyyatda əsas kapitala qoyulan sərmayələrin həcmində 2014-cü ildən bəri artım müşahidə olunmaqdadır. Bu da əsasən neft və qaz sektorundakı yeni sərmayələrin payına düşür.

*Şəkil 2: 2012-2017-ci illərdə məcmu əsas kapitalın formalaşması (milyon, azn)*




Mənbə:. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

2015-ci ilin dekabr ayında devalvasiyadan sonra illik inflyasiya (2-4 % aralığında olan), əvvəlki göstəricidən 13-14 % sürətlə artmışdır. Mərkəzi Bank əvvəlki təqvimlə 2018-ci ildə 6%-a qədər azaldılacağını bəyan edib.

İqtisadi siyasət baxımından, Azərbaycan özəl sektorun inkişafı və əlverişli mühitin yaxşılaşdırılması ilə orta müddətli inkişaf strategiyasını yenidən müəyyənləşdirmə prosesindədir. 2016-cı ilin dekabr ayında milli iqtisadiyyatın və iqtisadiyyatın 11 əsas sektorunun inkişaf etdirmək məqsədi ilə, orta və uzunmüddətli islahatlara və davamlı inkişafa yönəldilən strateji yol xəritəsi hazırlanıb. Həmçinin, regional əlaqələr, tranzit və ticarət (məsələn, Bakı-Tiflis-Qars və Trans-Anadolu qaz boru kəməri (TANAP) və Trans-Adriatik boru kəməri (TAP)) diqqət mərkəzindədir.

## Maliyyə bazarlarına ümumi baxış

Azərbaycanda maliyyə sektoru, maliyyə sektorunun ümumi aktivlərinin 95 faizini təşkil edən banklar tərəfindən idarə olunur. Azərbaycan Beynəlxalq Bankı (ABB) ölkədəki lider bank olaraq qalır və hökumət bankın əsas payçısıdır. Borcların qaytarılmasında defolt elan etməsi ilə ABB 2017-ci ilin may ayında 3.3 milyard dollar məbləğində borcların restrukturizasiyası prosesinə getdi. Bank hazırda borclarını xarici istiqrazlarla svop edir və hökumət bankı 2018-ci ildə özəlləşdirmək niyyətini elan edib. Borclar 2016-cı ildə problemli aktivlərin (ümumi aktivlərin 70%-ə qədəri olduğu hesab edilir) dövlət təşkilatı Aqrokreditə ötürülməsi ilə restrukturizasiya edilmişdir.

2015-ci ilin dekabr ayındakı devalvasiyadan sonra problemli kreditlər, likvidliyin olmaması və ümumi iqtisadi tənəzzül səbəbindən on bir bank bağlanmış və ya başqa banklara birləşdirilmişdir. Azərbaycandakı qalan banklar isə xarici investisiyalara malik özəl banklardır.

Bir çox sayda özəl banklar xarici səhmdar kapitalı olan investorlar cəlb etmişdir və Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Beynəlxalq Maliyyə Korporasiyası (BMK) və Alman maliyyə institutları seçilən institutlarda səhmlər almışdır. Məsələn, 2017-ci ilin iyun ayında AYİB və KfW elan etdi ki, bankın səhmlərindəki birgə paylarını 47.6%-ə çatdıraraq Unibankı dəstəkləmək üçün 26 milyon ABŞ dolları məbləğindəki borcu səhmə çevirəcəklər.

Əvvəlki Azərbaycan Milli Bankı olan Azərbaycan Mərkəzi Bankı (AMB) mərkəzi tənzimləyici orqan idi. 2016-cı ilin fevralında hökumət tənzimləmə və idarəçilik siyasətini təkmilləşdirmək üçün yeni maliyyə nəzarət orqanı olan Maliyyə Bazarlarına Nəzarət Palatasını yaratdı. AMB pul siyasətinə və valyuta məzənnələrinin stabilliyinə nəzarət etməyə davam edir. Bank sektorunda dövlətin güclü iştirakı və zəif tənzimləyici nəzarət əvvəllər zəif kredit vermə standartlarına, korrupsiyaya və qeyri-adekvat kapitallaşmaya səbəb olmuşdu. Kapitalın adekvatlığına dair yeni tələblər 2015-ci ilin yanvarında qüvvəyə mindi və bütün banklar buna uyğunlaşdırıldı ya da onlara uyğunlaşma üçün əlavə vaxt verildir.

Bir çox banklar neft qiymətlərinin azalması və bunun Azərbaycan iqtisadiyyatına təsiri ilə birgə 2015-ci ilin devalvasiyasından sonra sarsıldı. Devalvasiya proqnozları bir çox insanı və şirkətləri öz əmanətlərini dollara çevirməyə vadar etdi. Bu hal da bank kreditlərinin əmanətlərə qarşı profilində uyğunsuzluq yaratdı ki, bunun da nəticəsində bir çox banklar risklərə qarşı qorunmamış xarici valyutalar ilə əməliyyatlar aparırdılar. Bu da öz növbəsində sonrakı devalvasiya zamanı mübahisəli kredit keyfiyyəti olan kredit kitabçalarını açıqlamaqla bankları itkilərini qəbul etməyə məcbur etdi. Nəticədə banklar aktivlərinin keyfiyyətini, kapitallaşmasını və gəlirlərinin azalmasını son üç il ərzində görmüş oldular.

Bank sistemi 2017-2018-ci illərdə də çətinliklərlə üzləşməkdədir. Valyuta məzənnəsinin tənzimlənməsi xarici borx xidmətinin dəyərini artırmış və bankların xarici valyuta kreditlərinin uğursuzluq dərəcəsini yüksəltmişdir. Rəsmi məlumatlara əsasən problemli kreditlərin həcmi kredit portfelinin 2016-cı ilin sonunda 9%-dən 2017-ci ilin iyun ayının sonunda 13%-ə qədər qalxmışdır. Baxmayaraq ki, bu rəqəmlər yetərincə hesabat verməməkdən ötrü reallıqda daha yüksək ola bilər. Əmanətlərin yüksək dollarlaşması yerli valyuta ilə borcverməni məhdudlaşdırmışdır və banklar manatın yenidən devalvasiyasından doğan narahatlıqlardan ötrü xarici valyuta ilə kreditlərin verilməsində istəksizdirlər. Kapital səviyyələri və mənfəətlilik aşağıdır.

Əksər banklar qısamüddətli ticarət maliyyələşməsi, uzunmüddətli layihə maliyyələşməsi, ipoteka və digər müasir bankçılıq məhsulları təklif edir. Orta və uzunmüddətli kapital çatışmazlığı Azərbaycanda özəl bizneslərin maliyyələşməsi qarşısında duran əngəldir. Kreditlərin verilməsi məhduddur ki, bu da öz növbəsində ölkədəki kiçik və orta bizneslərin inkişafına maneə törədir. Kiçik və orta bizneslər yüksək əlavə tələblər və faiz dərəcələrində ötrü əlverişli kredit imkanları əldə etməyə çətinlik çəkirlər. Uzunmüddətli ticarət və layihə maliyyələşməsi inkişaf etməmiş olaraq qalır. Azərbaycanda lizinq imkanları da məhduddur, lakin inkişafda olan şirkətlərin maliyyə vəziyyətlərinin yaxşılaşması üçün yaxşı şərtlər təklif edə bilər.

Gələcəyə baxdıqda hökumətin bank sektorunu nisbətən kiçik həcminə görə lazım gələrsə yenidən kapitallaşdırma seçimi vardır. Bununla belə aktivlərin keyfiyyətinin aşağı düşməyə davam edəcəyi gözlənilir. Kapitalın adekvatlığı səviyyələri daha da pisləşə bilər və daha çox bankın bağlanması mümkündür. Hazırda daha beş bankın çətinliklərlə üzləşdiyi barədə gedən müzakirələr haqqında xəbərlər dolaşır. Lakin maliyyə sahəsinə nəzarət edən qurumun güclü siyasi bağlantıları olan banklara korporativ idarəçilik standartlarını tətbiq etməsi müşkül görünür. Sərt pul siyasətinin (iqtisadiyyatın dollarlaşmasını azaltma məqsədi güdən) ümumi aşağı borcvermə ilə nəticələnəcəyi gözlənilir. Kredit

və əmanət faizlərinin arasındakı marjanın oxşar inkişaf etməkdə olan bazarlardakından xeyli dərəcədə yüksək olması bank sektorunu qeyri-rəqabət qabiliyyətli edir.

Bank olmayan maliyyə sektoru, xüsusilə də mikro maliyyə sektoru inkişaf etdirilməmiş (maliyyə bazarının dəyərinin yalnız 5% -ni təşkil edir), lakin Kiçik və Orta Müəssisələr üçün əhəmiyyətli maliyyə mənbəyi olaraq qalır. 2018-ci ilin mart ayına qədər kredit lisenziyaları alınmış bir sıra keçmiş banklar daxil olmaqla, ümumilikdə 47 Bank Olmayan Kredit təşkilatı fəaliyyət göstərir. Onlar müştərilərdən əmanətləri qəbul edə bilmirlər. Ölkədə Kiçik və Orta Müəssisələrin inkişafı üçün uyğun bir mühit təmin etmək üçün kredit təchizatı çox azdır.

Bundan əlavə, Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) böyük miqyaslı daxili və beynəlxalq infrastruktur layihələrində investor kimi çıxış edir. Azərbaycan dövlətinin enerji aktivlərindən əldə edilən gəlirlər kapitallaşdırılmış və hazırda 35 milyard ABŞ dolları məbləğində kapitallaşdırılır. Tipik investisiyalar arasında enerji infrastrukturu, dəmir yolu, su və suvarma sistemləri, eləcə də sosial-iqtisadi fəaliyyət (təhsil, qaçqınlar) daxildir. Bu da, həmçinin, Azərbaycan İnvestisiya Şirkətinin orijinal kapitallaşmasını dəstəkləyir.

## Yaşıl investisiya siyasəti

Azərbaycan hökuməti qətiyyətli hədəflər müəyyənləşdirən və karbonsuz, iqlimə dayanıqlı inkişaf sahəsində investisiyaları təşviq edən mexanizm yaradan müxtəlif siyasi sənədlər hazırlamışdır.

- Azərbaycan 2020 Gələcəyə Baxış Konsepsiya sənədində iqlim dəyişikliyinin ölkənin sosial-ictimai həyatına və iqtisadiyyatına mümkün təsirləri və bunun üçün də vacib siyasi tədbirlərin hazırlanmasının əhəmiyyətinə yer verilir. Sənəddə həmçinin qeyd olunur ki, bir vahid ÜDM-in istehsal edilməsi üçün istifadə edilən enerjinin və CO2-nin miqdarı 2020-ci il etibarı ilə İƏİT ölkələrinin müvafiq standartları ilə eyn olmalıdır.
- Azərbaycanın nəzərdə tutulan milli səviyyədə müəyyən olunmuş töhfələri CO2-də azaldılma aparılacaq bir neçə prioritet sektorları müəyyənləşdirir. Bu prioritetlərə yaşayış və kommersiya binaları. neft və qaz sektorundan çıxan uçucu qazlar və nəqliyyat sektoru daxildir.
- Alternativ və Bərpa olunan Enerji Mənbələrinin İnkişafı üzrə Strategiya 2020-ci ilə qədər ümumi enerji istehlakında 9.7% olmaqla istehlak edilən elektrik enerjisinin payını bərpa olunan enerji mənbələri hesabına 20%-ə çatdırmağı nəzərdə tutur.

Qeyd olunan məqsəd 2020-ci il etibarilə alternativ enerji sahəsinə 7 milyard dollar məbləğində investisiyalar qoymaq və 2 QVt yeni generasiya gücləri (ümumi enerji tələbatının 20%-i) yaratmaqdır. Hədəflənən texnologiyalar günəş və külək energetikası sahəsindədir. Bərpa olunan enerji üzrə 2030-cu ilədək dövrü əhatə edəcək yeni strategiya hazırlıq mərhələsindədir.

İnvestisiyaları dəstəkləmək üçün bir çox siyasi/inzibati tədbirlər mövcuddur. Bərpa olunan enerji sahəsi üçün bunlara güzəştli tariflərin, enerji alqı-satqı müqavilələrinin, sadələşdirilmiş şəbəkəyə qoşulmanın, sürətləndirilmiş lisensiyalaşmanın (1 MVt-dan böyük güclər üçün), qrantlar və güzəştli kreditlərin və investisiyanın təşviqi sertifikatların (gəlir, torpaq və gömrük vergilərindən azad olunma) təmin edilməsi daxildir. Buna baxmayaraq ölkədə hazırda bu sahədə ümumi hüquqi baza çatışmaz olaraq qalır və Elektrik Enerjisindən istifadə haqqında Qaydaların bərpa olunan enerji sahəsinə aidiyyəti yoxdur.

*Cədvəl 1: Azərbaycanda əsas ətraf mühit üzrə siyasətin Tədbirlər Planı (İƏİT 2016)*

| Siyasət | Təsvir |
|---|---|
| Azərbaycan 2020: Gələcəyə baxış | 2012-ci ildə Prezident İlham Əliyev tərəfindən təsdiq edilmişdir. Azərbaycan 2020 iqlim dəyişikliyinin ölkə cəmiyyətinə və iqtisadiyyatına təsirinin və zəruri siyasət tədbirlərinin hazırlanmasının vacibliyini vurğulayır. Həmçinin bildirir ki, bir ədəd ÜDM əmələ gəlməsi üçün istifadə olunan enerji miqdarı, həm də CO2 miqdarı 2020 İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrin müvafiq göstəriciləri ilə uyğun olmalıdır. |
| 2015-2020-ci illər üçün ekoloji vəziyyətin yaxşılaşdırılması və təbii resurslardan səmərəli istifadəyə dair Tədbirlər Planı | Plan digərləri arasında inkişafın vacibliyini vurğulayır: (i) Milli Uyğunlaşma Planı (NAP) və Milli Müvafiq Yumşaldılma Tədbirləri (NAMA) ölçmə, hesabatlandırma və yoxlama (MRV) sistemlərinə aid elementləri birləşdirir. |
| "2012-2020-ci illər üçün Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə dair Dövlət Strategiyası" | Bu strategiya ölkədə bir sıra bərpa olunan enerji mənbələrinin inkişafına kömək etmək üçün hazırlanmışdır. Tədbirlərə daxildir: alternativ və bərpa olunan mənbələrdən elektrik və istilik enerjisi istehsalına 2020-ci il üçün əsas istiqamətlərin müəyyən edilməsi; qanunvericilik bazasına riayət olunmasının təmin edilməsi; stimullaşdırma tədbirləri (məsələn, təminatlı tariflər və birbaşa subsidiyalar); alternativ və bərpa olunan enerji inkişafı layihələrinin həyata keçirilməsi |
| "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" | Bu Dövlət Proqramı ölkənin milli davamlı inkişaf strategiyasıdır, baxmayaraq ki, onun əsas məqsədi yoxsulluğun azaldılmasıdır. |
| Atmosfer Havasının Mühafizəsi Haqqında Azərbaycan Respublikasının Qanunu | Müxtəlif qurumların hava çirkliliyi üçün standartlar və limitləri hazırlaması üzrə məsuliyyətlərini müəyyənləşdirən, hava çirkliliyi və emissiyalar barədə qaydaların yaradılması üçün hüquqi çərçivə. |
| Enerji resurslarından istifadə haqqında Azərbaycan Respublikası Qanunu | Qanun enerji resurslarının istifadəsi ilə bağlı Dövlət siyasətinin hüquqi, iqtisadi və sosial əsaslarının tətbiq mexanizminin əsas istiqamətini müəyyənləşdirir və bu sahədə dövlət və hüquqi şəxslərin əlaqələrini tənzimləyir. |
| "Energetika haqqında" Azərbaycan Respublikasının qanunu | Bu qanun energetika sektorundakı bütün sahələrə və enerjinin istehsalında istifadə olunan materiallara və məhsullara aiddir. Dövlətin enerji siyasətinin məqsədlərini bildirir. Enerjidən səmərəli istifadə üçün tələblər və ətraf mühitin mühafizəsi, sağlamlığı və təhlükəsizliyi ilə bağlı öhdəliklər üçün müddəalar da öz əksini tapmışdır. |
| Sahibkarlıq formasından asılı olmayaraq Enerji Sektoru müəssisələri üçün enerji səmərəliliyi, itkilərin və texnoloji istehlakın azaldılması üzrə Fəaliyyət Planı | Bu sərəncam, sərəncamda göstərilən dörd vəzifəyə nəzarəti Yanacaq və Energetika Nazirliyinə (bundan sonra Sənaye və Energetika Nazirliyinə) təyin edilir. Vəzifələri ikisinə ölçü və texniki itkilərin azaldılması daxildir. |

## Maliyyə mənbələri

Azərbaycan yaşıl layihələrə yönələn investisiya qoyuluşlarına maraq göstərir. Azərbaycan Dövlət Neft Fondu (suveren sərvət fondu) dayanıqlı gəlir əldə etmək məqsədi ilə sərmayə qoymaq üçün yaradılmışdır. Aktivləri 2017-ci ildə 35 milyard ABŞ dolları dəyərində qiymətləndirilir. Fond su təchizatı, suvarma və nəqliyyat kimi sahələrə bir neçə investisiya qoyuluşları həyata keçirmişdir. Dövlət vəsaitləri Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (SAARES) vasitəsilə də həyata keçirilir. Azalternativenerji MMC – şirkəti 30 mln ABŞ dolları kapitalı ilə bərpa olunan enerji resurslarının inkişaf etdirilməsi məqsədi ilə Dövlət Agentliyi tabeliyində yaradılmışdır. Suveren sərvət fondu, məsələn, IFC tərəfindən idarə olunan Katalizator Fondu (iqlim dəyişikliyi şirkətləri üçün xüsusi kapital və borc investisiyaları) üzərində iştirak etməklə, uzunmüddətli investisiyalara maraq göstərir.

Hökumət dövlət investisiya proqramı (PIP) və digər dövlət müəssisələri vasitəsilə ətraf mühit layihələrini maliyyələşdirir. Asiya İnkişaf Bankı (AİB) ətraf mühitə bağlı xərclərin ümumi dəyərini 2014-cü ildə ÜDM-nin 2-3% -i (və ya DİP-nin 6-12% -i) səviyyəsində qiymətləndirib. Aralıqlar, ətraf mühitin təmizlənməsi və bələdiyyə infrastrukturuna (məsələn, tullantıların idarə edilməsi) daxil olan dövlət neft gəlirlərinin dəyişkənliyini əks etdirir (AİB, 2014).

Əhəmiyyətli maliyyələşmə digər böyük korporativ və maliyyə qurumlarından daxil olur. Ancaq bir çox bank maliyyə böhranı ilə mübarizə etdi və hal-hazırda tənzimləyici ilə dəstək üçün müzakirə edir, yenidən kapitallaşma tələb edir və ya konsolidasiya barədə düşünür.

***Şəkil 3: 2011-15-ci illər üzrə ətraf mühit və iqlim maliyyələşmələri üzrə Azərbaycanda inkişaf axını***




Mənbə: OCED İnkişaf üzrə Yardım Komitəsinin məlumat bazası.

Yaşıl investisiyaların çoxu beynəlxalq donorlar tərəfindən dəstəklənir. Maliyyələşmənin inkişafı baxımından, OECD İnkişaf üzrə Yardım Komitəsi (DAC), 2011-2015-ci illər üçün iqlim dəyişikliyi ilə bağlı təxminən 200 milyon ABŞ dolları olan inkişaf maliyyə axını proqnozlaşdırırdı ki, bunun 75 faizindən çoxu bazarda kreditlər şəklində və ya güzəştli dərəcələrdə, eyni zamanda bəzi kapital qoyuluşlarına malikdir. Donorlar da qrant vasitəsi ilə texniki yardım təmin etmişdirlər.

İnkişaf tərəfdaşları tez-tez yerli maliyyə institutları vasitəsi ilə ətraf mühit üçün maliyyələşdirmə həyata keçirilər. Avropa Yenidənqurma və İnkişaf Bankının Qafqaz Enerji Səmərəliliyi Proqramı (CEEP) Azərbaycanda aktivdir və 2014-cü ildən başlayaraq 4 yerli Banka (Dəmir Bank, Muğan Bank, FİNCA və UNİBANK) 16.5 mln ABŞ dolları kredit xətti ilə dəstək göstərib. Əlavə olaraq, Yaşıl Artım Fondu (GGF) əlavə 2 Bankı (Access Bank və Muğan Bank) kredit xətti ilə təmin etdi. Bu kredit xətləri yerli şirkətlərə və ev təsərrüfatlarına kiçik miqyaslı bərpa olunan texnologiyalarla birlikdə daha enerji səmərəli avadanlığın, texnikanın və materialları satın almaq və quraşdırmaqda kömək edir. Bunlara müasir istehsal qurğuları, ikiqat şüşəli pəncərələr, izolyasiya, qaz qazanları, günəş suyu qızdırıcıları və dam üçün günəş panelləri daxildir. Kredit xətləri layihələrin dizayn və qiymətləndirilməsinə kömək etmək üçün lazım olduqda texniki yardım dəstəyi ilə də təmin edir.

*Cədvəl 2: Beynəlxalq Maliyyə İnstitutları (BMİ) tərəfindən Azərbaycanda yerli Maliyyə İnstitutlarına (Mİ) ayrılan ətraf mühit üzrə kredit xətlərinin xülasəsi*

| İl | Donor | Qəbul edən Mİ | Dəyəri (milyon ABŞ dolları) | Hədəf |
|---|---|---|---|---|
| 2015 | AYİB QEEP | Unibank | 1.5 | Fərdi, korporativ |
| 2014 | YAF | Muğanbank | 5.0 | Əhali, MSME |
| 2014 | AYİB QEEP | Dəmirbank | 5.0 | Fərdi, korporativ |
| 2014 | AYİB QEEP | Muğanbank | 3.0 | Fərdi, korporativ |
| 2014 | AYİB QEEP | FINCA | 6.0 | Mikro, Kiçik və Orta Müəssisələr |
| 2014 | YAF | Accessbank | 15.0 | Mikro kiçik müəssisələr |
| 2013 | BMK | Bank Respublika | 15.0 | Kiçik və Orta Müəssisələr |
| 2013 | AYİb | Accessbank | 4.2 | Birbaşa investisiya |

Mənbə: AYİB, YAF, BMK veb saytları.

Əsaslı texnologiya inkişafına, eləcə də bir sıra bərpa olunan enerji sahəsində açar-təhvil layihə podratçı şirkətlərə yönələn investisiya ilə birgə, Azərbaycanda bərpa olunan enerji və enerji səmərəliliyi sahəsində bir sıra böyük miqyaslı kapital qoyuluşları olmuşdur. Onlardan ən vacibləri Cədvəl 3-də göstərilmişdir.

*Cədvəl 3: İri miqyaslı bərpa olunan enerji və enerji səmərəliliyi investisiyaları nümunəsi*

| | |
|---|---|
| Hibrid Elektrik Stansiyaları | Qobustan Eksperimental Poliqonu və Tədris Mərkəzi (5.5 MVt) |
| Günəş Elektrik Stansiyaları | Pirallahı Günəş Elektrik Stansiyaları (2.8 MVt)<br>Suraxanı Günəş Elektrik Stansiyaları (2.8 MVt)<br>Sumqayıt Günəş Elektrik Stansiyaları (2.8 MVt)<br>Naxçıvan Günəş Elektrik Stansiyaları (20 MVt) |
| Külək Elektrik Stansiyaları | Yeni Yaşma Külək Parkı (50 MVt)<br>Sitalçay Külək Parkı (3.6 MVt)<br>Hökməli Külək Parkı (8 MVt)<br>Külək Adası - 1 (200 MVt) – inkişaf mərhələsindədir |
| Biokütlə Elektrik Stansiyaları | Oğuz və Ağcabədi rayonlarında biokütlə kogenerasiyası stansiyası (16 MVt) |
| Sənayedə enerji səmərəliliyi | Qaradağ Sement Zavodunun səmərəliliyinə 257 mln ABŞ dolları sərmayəsi2009)<br>Uçucu qaz emissiyalarının azaldılması (məsələn, Lukoil Şah Dəniz 2-ci mərhələ (2015) |
| Texnologiya inkişafı və istehsalı | İllik gücü 50 MVt olan Azgüntex Günəş Panelləri İstehsalı Zavodu 2012-ci ildə istismara verilib<br>Sumqayıt Yüksək Texnologiyalar Parkı layihəsi |
| Bərpa olunan enerji sahəsində açar-təslim layihə podratçıları | Alten Group<br>SOCAR |

## Müzakirə üçün suallar

Bu təhlilin əsasında müzakirə üçün bir sıra əsas suallar yaranır:

- Hazırkı iqtisadi vəziyyət və maliyyə sektorunun inkişafı Azərbaycanda ekoloji maliyyələşmənin genişlənməsini və / və ya məhdudlaşdığını necə göstərir?
- Maliyyə institutlarının və digər investorların daha fəal cəmiyyətinin inkişaf etdirilməsi üçün hansı siyasət və ya bazarda maneələr mövcuddur və necə aradan qaldırıla bilər?
- Regionda ekoloji sərmayələrin genişləndirilməsinə kömək etmək üçün ən yaxşı təcrübələrin mövcudluğu və Azərbaycana köçürülə bilərmi?
- Siyasətçilər, maliyyə institutları və layihələrin inkişaf etdirənlər üçün maliyyələşmə axınlarını yaşıl infrastruktura yönəltmək üçün müvafiq rolu və məsuliyyət nə olmalıdır?

**Mənbələr**


ADB (2014), Ölkə Tərəfdaşlıq Strategiyası: Azərbaycan, 2014–2018.
https://www.adb.org/sites/default/files/linked-documents/cps-aze-2014-2018-sd-04.pdf .

ECS (2013), *Azərbaycanın enerji səmərəliliyi siyasətinin dərinliyinə baxış*, Enerji Xartiyası Katibliyi, Brüsel. http://www.energycharter.org/what-we-do/energy-efficiency/energy-efficiency-country-reviews/in-depth-review-of-energy-efficiency-policies-and-programmes/in-depth-energy-efficiency-review-of-azerbaijan-2013/.

OCED (2016), *Azərbaycanda İqlim Fəaliyyətinin maliyyələşdirilməsi*, Ölkə nümunəsi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Paris.
https://www.oecd.org/environment/outreach/Azerbaijan_Financing%20Climate%20Action.Nov2016.pdf

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (2015), Bərpa Olunan Enerji və Enerji Effektivliyi Siyasəti: Azərbaycanın təcrübəsi və Strateji Baxışı, Azərbaycan-Fransa Biznes Forumu - Şaxələndirilmiş, Mərkəzləşdirilməmiş Iqtisadiyyata doğru, Cəmil Məlikovun təqdimatı.
http://teas.eu/files/BFP2015/s3_abemda2015.pdf.

Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (2011), *Azərbaycan Respublikası Bərpa Olunan Enerji üzrə Strategiyası*, ABOEMDA, Bakı.
http://eeas.europa.eu/delegations/azerbaijan/documents/page_content/2__jamil_malikov_-_re_strategy_in_azerbaijan.pdf.

EaPGREEN
Partnership for Environment and Growth

This project is funded by the EU

# AZƏRBAYCANDA YAŞIL İNVESTİSİYALARIN VƏ MALİYYƏLƏŞMƏNİN ARTIRILMASI

Bu hesabat Azərbaycan Respublikasında yaşıl maliyyə üçün bazarın inkişafını nəzərdən keçirir. Son makro iqtisadi fəallıqlaa bağlı olan baxışla başlayaraq növbəti addım olaraq Azərbaycanın bank və maliyyə bazarlarındakı vəziyyəti inkişaf etdirmək hesabatda hədəf kimi qoyur. Hesabat ekoloji maliyyə və əlaqədar layihələrin təfərrüatlı nümunələrini verməmişdən əvvəl ekologiyaya sərmayə qoyuluşunu dəstəkləyən proqramlara ümumi baxış və hədəfləri göstərir.


**Əlavə məlumat üçün**

www.green-economies-eap.org

Ms. Nelly Petkova (OECD): Nelly.PETKOVA@oecd.org


**Foto**


©Shutterstock.com/ Kisov Boris


OECD BETTER POLICIES FOR BETTER LIVES | UNECE | UN environment | UNIDO